# Biblioqrafik nəşrlərin üçüncüsü

## Ədəbiyyat İnstitutu əməkdaşlarının elmi əsərlərinin 2015-ci il üzrə biblioqrafik göstərici kitabı nəşr olunub

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunan və institut əməkdaşlarının illik elmi əsərlərini – monoqrafiyaları, xaricdə və ölkənin nüfuzlu elmi jurnallarında nəşr olunmuş məqalələri, dövri mətbuatda və internet resurslarında dərc olunan yazıları, müsahibələri özündə əhatə edən vəsait – Biblioqrafik göstərici – 2015" kitabı işıq üzü görüb.**

AMEA-nın vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin təşəbbüsü və layihə rəhbərliyi ilə toplu 2013-cü ildən etibarən nəşr olunur. Filoloji istiqamətdə araşdırma aparan tədqiqatçılara mənbələri daha rahat tapmaqda kömək edən və institut əməkdaşlarının elmi fəaliyyətinin salnaməsinə çevrilən toplunun tərtibçisi filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva və Sona İbrahimova, redaktoru isə İnstitutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır.




"Nizami adına Ədəbiyyat İnstitutu-2015" toplusu İnstitut əməkdaşlarının 2015-ci ildəki elmi axtarışlarının məcmusu kimi Azərbaycan ədəbiyyatşünaslıq elminin müasir nailiyyətlərini əks etdirməklə yanaşı gələcək inkişaf perspektivlərini müəyyən etmək baxımından mühüm əhəmiyyətə malikdir.

Eyni zamanda, biblioqrafik göstəricidə Nizami adına Ədəbiyyat İnstitutunun 2015-ci il üçün elmi nəşrlərinin statistik mənzərəsini aydın şəkildə görmək mümkündür. Belə ki, biblioqrafik göstəricidən görünür ki, İnstitut əməkdaşlarının iştirakı ilə 2015-ci il ərzində 9-u tərcümə, 21-i tərtib olmaqla 75 kitab nəşr olunmuşdur. Həmin kitablardan 45-i müxtəlif elmi problemlərə və şəxsiyyətlərə həsr edilmiş monoqrafiyalardır. Bundan başqa, İnstitut əməkdaşlarının xarici ölkələrin elmi jurnallarında 98, ölkənin müxtəlif elmi toplularında, qəzet və internet resurslarda 1146 olmaqla 1254 məqaləsi dərc olunub. Bunların sırasında inpakt faktorlu jurnallarda çap olunan elmi məqalələr də vardır.

"Nizami adına Ədəbiyyat İnstitutu-2015" kitabında əməkdaşların əlifba ardıcıllığı ilə göstəriciləri də verilib ki, bu da ümumi göstərici ilə bərabər, İnstitut alimlərinin illik göstəricilərinin mənzərəsini aydın şəkildə təsəvvür etməyə imkan yaradır.

Biblioqrafik göstərici 2015-ci il ərzində hər bir əməkdaşın ayrı-ayrılıqda nə qədər səmərəli şəkildə çalışdığını, elmi fəallıq səviyyəsini də müəyyən etməyə əsas verir.